**Azad Azərbaycan.- 2022.- 2 iyun. S. 7.**

**Beynəlxalq dərəcəli hakim, idman ustası, peşəkar boksçudu, Əməkdar məşqçi, Əməkdar bədən tərbiyəsi və idman işisi, Cənub bölgəsində peşəkar boksun əsasını qoyan, yüzlərlə məşhur boksçular yetişdirən, dəyərli ziyalı Əlizadə Əsədov həm də uzun illərdir ki, jurnalistika və ədəbiyyatla məşğul olur. Onun çoxlu məqalələri və bədii yazıları mütəmadi olaraq, dövrü mətbuatda çap olunur.**



*Əlizadə ƏSƏDOV*

# Qəhrəman kimi

Şəhid Əmrah Cəfərlinin atası Yusif I Qarabağ müharibəsinin veteranıdır. Müharibəyə könüllü gedən Yusif doğma Lənkərana, Şirinsu kəndinə qazi kimi qayıtdı. Əmrah atasının mətin iradəsini təkrar edərək II Qarabağ müharibəsində könüllülərə qoşulub cəbhəyə getdi. Bir çox rayonların azad olunmasında qəhrəmanlıq göstərdi. Lakin qazi atanın oğlu Lənkərana şəhid kimi qayıtdı...

Kökdən, qandan gəlir Vətən sevgisi,
Bir xalqı qaldırdı zaman döyüşə.
Qəlbində çağlayan intiqam hissi
Çağırdı Əmrahı hər an döyüşə.

Nə göyə, nə yerə sığmırdı Əmrah,
Atasından aldı hünər dərsini.
Getdi döyüşlərə könüllü kimi
Boğa bilməyirdi qəzəb hissini.
Qarabağ əsirdi düşmən əlində,
Qarabağ tapdaqdan yaralı idi.
Aradan üzücü illər keçsə də,
Vətən torpağından aralı idi.

Boş görür evini Əmrahsız bu gün
Xanımqız anası, Yusif atası.
Vətənçün canından keçən bir ömrün
Gözüyaşlı qaldı öz nişanlısı.

Qatıldı döyüşə Vətən övladı,
Gözünü qan tutan bir aslan kimi.
Gedəndə cəbhəyə adi insandı,
Qayıtdı evinə qəhrəman kimi.

***Lənkəran -2022-ci il***

# Şəhid məzarı

*Lənkərandan cəbhəyə gedən könüllülərin 41-cisi olan Şəhid Hüseyn Bəşirzadəyə*

Qarabağ işğaldan qurtulsun deyə,
Könüllü qatıldı Hüseyn cəbhəyə.
Şərəfdi torpağa, şərəfdi göyə,
Qumbaşı kəndində bir şəhid yatır.

Gəldiyi yollara siz bir də baxın,
Danışır haqqında həm uzaq, yaxın.
Gəlir görüşünə el axın-axın,
Qumbaşı kəndində bir şəhid yatır.

Ölməyib, ən uca zirvədən baxır,
Bizə görünməyən bir yerdən baxır,
Yol boyu o dəmir lövhədən baxır,
Qumbaşı kəndində bir şəhid yatır.

Yaşıdlar içində hörməti vardı,
Qolunda yenilməz qüdrəti vardı.
Kəndinə sığmayan qeyrəti vardı,
Qumbaşı kəndində bir şəhid yatır.

Döyüşdən yorulub dincəlir daha,
Məzarı dönübdü ziyarətgaha.
Bizimlə birlikdə gedir sabaha,
Qumbaşı kəndində bir şəhid yatır.

***Lənkəran -2022-ci il***

# Oğul havası durur

*23 yaşlı şəhid, Ceyhun atanın,*
*Könül ananın yeganə oğul övladı*
*Kamran Səmədovun əziz xatirəsinə*

Yaralı Vətənin çağırışına,
İlkin səs verərək yetdi imdada
Od tökdü döyüşdə düşmən başına,
Öz qısa ömrünü versə də bada.

Bitirdi cəbhədə kama çatmayan
İyirmi üç yaşlı cavan həyatı.
Vaxtilə çalınan kövrək laylanı
Əvəz edib indi ağı, bayatı.

Bir evin tək yanan çırağı idi,
Ürək açmamışdı hələ bir qıza.
Fəqət bu sevgini Vətənə verdi,
Yerdə də, göydə də döndü ulduza.

Könülün, Ceyhunun sorma halını,
Ürəkləri kövrək kamana dönüb
Necə unutsunlar Kamran balanı,
Kədəri dəryaya, ümmana dönüb.

Üzündən nur yağan doğma qardaşın,
Sınıq qəlbli Arzu bacısı qalıb.
Ananın bir şirin övladı ikən
Özü yox, ağrısı, acısı qalıb.

Susub telefonu, qulaqda hələ
Vurduğu son zəngin sədası durur.
Onlar barışmayır yoxluğu ilə,
Başlarında oğul havası durur. (***Liman -2022-ci il***)